# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ QOYUNÇULUĞUN İNKİŞAFI

**Müzakir Məmmədov, Sevinc Abbasova, Türkan Nəcəfova**

*Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarıq Elmi-Tədqiqat İnstitutu, necefovaturkan404@gmail.com*

Tarixən Kəlbəcər, Laçın, Qubadlı rayonlarında olan böyük yaylaqlar və otlaq sahələrinin mövcudluğu bölgədə heyvandarlığın inkişafı potensialını artırır. Yaylaqlarda çox zəngin bitki örtüyü və yem ehtiyatı mövcuddur. İşğaldan əvvəlki dövrdə də bu yaylaqlar Azərbaycanın müxtəlif bölgələrində təsərrüfatla məşğul olan insanların əsas köç yeri olmuşdur. 30-dan çox rayonun təsərrüfatları mövsüm ərzində Kəlbəcərin Sarıyer, Söyüdlü, Qoşdaş yaylaqlarına köç edirdi.

Heyvandarlıq infrastrukturunun qurulması üçün ilk növbədə burada insanlar tərəfindən fermalar qurulmalıdır. Bu fermaların iri və xırdabuynuzlu heyvanlarla təminatı üçün zəruri dəstək tədbirləri görülməlidir. Proqnozlara əsasən, orada 400 min baş iribuynuzlu və 1,5 milyon baş xırdabuynuzlu heyvan sürüsü formalaşdırılacaq. Bununla da iri və xırdabuynuzlu heyvan sürüsünün ümumi ölkə göstəricisinə nisbəti 15-18 faiz olacaq. Burada 45 min ton ət, 200 min tondan çox süd istehsal ediləcəyi proqnozlaşdırılır. Bizim iri və xırdabuynuzlu heyvan əti idxalımızın təqribən 35 min ton olduğunu nəzərə alsaq, bu, heyvandarlıqla bağlı çox ciddi idxaləvəzetmə prosesinə səbəb olacaq.

Artıq ikinci ildir ki, qoyunçuluq təsərrüfatlarının Kəlbəcər yaylaqlarına köçü təşkil olunur. 2022-ci ildən isə azad olunmuş ərazilərdən olan bütün rayonların fermerlərinə öz qoyunçuluq təsərrüfatlarını Kəlbəcər və Laçın yaylaqlarına aparmağa icazə verilib. Bu il isə yaylaqlara 300 mindən çox heyvan aparılıb.

Heyvandarlığın əsas sahələrindən biri də qoyunçuluq hesab olunur. Qoyunçuluğun inkişafı və yunun keyfiyyəti qoyunların düzgün və tam yemləndirilməsindən asılıdır. Azərbaycan Cənubi Qafqazda qoyunçuluğun beşiyi sayılır. Burada tarixən onlarla qoyun cinsi saxlanmışdır. Bu cinslərin əksəriyyəti tarixən yaranmış və inkişaf etmiş cinslərdir. Bu cinslər xarici görünüşü, yununun keyfiyyəti, südü, çəkisi və başqa nişanələrinə görə bir-birindən fərqlənir. XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda yetişdirilən müxtəlif qoyun cinsləri əsasən yağlı quyruqlu olub, ətlik, südlük, yunluq və satış üçün istifadə edilmişdir. Bu cinslərdən Azərbaycan dağ merinosu, Qarabağ, Abşeron, Balbas, Bozax, Cəro, Herik, Ləzgi, Mazıx, Merinos, Qala, Mil-Qarabağ, Qaradolaq, Şirvan qoyunlarının adlarını çəkə bilərik.

Mil-Qarabağ qoyunu Azərbaycanda şöhrət tapan və ən geniş yayılan qoyun cinsidir. Mil-Qarabağ qoyun cinsi Dağlıq Qarabağ, Kəlbəcər, Gürcüstan, Ağdam, Cəbrayıl, Mil düzü və Muğan düzündə daha geniş yayılmışdır. Bu qoyun cinsi yerli qoyun cinsi ilə Ön Asiya quyruqlu qoyun cinsinin cütləşməsindən əmələ gəlmişdir. Cins doğuma da çox həssasdır. Əgər düzgün döl edilərsə, ildə iki dəfə bala verə bilər (ekiz balavermə polestrikliyi 25 - 30%). Hər 100 doğar qoyundan 130-140 baş quzu almaq olur.

Qarabağ qoyunu dözümlülüyü, yorulmadan uzaq yol getməsi, qış şəraitinə və alafın azlığına qane olması ilə fərqlənir. Sutkada 20-25 km yol gedə bilir. Cins, yaraşıqlı görkəmi, yağlı quyruqluluğu, şirin əti və nisbətən zərif yunu ilə digər qoyunlardan seçilir. Qarabağ cinsi Bozax, Şirvan və başqa yerli qoyun cinslərinin təşəkkül tapmasında ana cins rolunu oynamışdır. Həmçinin bu qoyun diri çəkisinin çoxluğu ilə də diqqəti cəlb edir. Cinsdən olan dişi qoyunların çəkisi 45-50 kq, erkək qoyunların çəkisi isə 60-65 kq-dan çox olur. Ət çıxarı 55-60% olmaqla mərmərvari quruluşa malikdir.

Qarabağ qoyunları yemə az tələbkar, gövdələri iri, yunlarının rəngi isə açıq-boz və kürən rənglidir. İldə 32 litr süd verən hər bir ana qoyundan laktasiya ərzində 50-60 litr süd almaq olur. Bu cins qoyunların yunu nisbətən az olur. Orta hesabla 2,4 kq, erkək qoyunlardan isə 3,5-3,7 kq yun qırxmaq olur.

Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Damazlıq Şurasının 25.04.2008-ci il tarixli 02 №-li qərarına əsasən "Abşeron" və "Mil-Qarabağ" qoyun cinsləri təsdiq edilmiş, Azərbaycan qoyunçuluğunun qızıl genefonduna əlavə olunmuşdur. Bununla da genefondda cinslərin sayı 11-dən 13-ə çatdırılmışdır.